**“Dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddinə çatmış işçinin çalışma müddətinin 5 ildən artıq uzadılmasına yol verən elm, mədəniyyət, səhiyyə və təhsil sahələrinin inkişafında xüsusi xidmətlərin meyarları”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2011-ci il 17 may tarixli 127-IVQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 460 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddinə çatmış işçinin çalışma müddətinin 5 ildən artıq uzadılmasına yol verən elm, mədəniyyət, səhiyyə və təhsil sahələrinin inkişafında xüsusi xidmətlərin meyarları” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 31 oktyabr 2011-ci il
№ 180

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2011-ci il 31 oktyabr tarixli 180 nömrəli qərarı ilə
təsdiq edilmişdir

**Dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddinə çatmış işçinin çalışma müddətinin 5 ildən artıq uzadılmasına yol verən elm, mədəniyyət, səhiyyə və təhsil sahələrinin inkişafında xüsusi xidmətlərin meyarları**

1. Dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddinə çatmış işçinin çalışma müddətinin 5 ildən artıq uzadılmasına yol verən meyarlar aşağıdakılardır:

1.1. Azərbaycan Respublikasının orden və medalları ilə təltif edilmə;

1.2. Azərbaycan Respublikasının fəxri adlarına layiq görülmə;

1.3. işlədiyi sahə üzrə elmi dərəcəsinin və ya elmi adının olması;

1.4. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və ya müxbir üzvü olması;

1.5. Dövlət mükafatı laureatı olması;

*1.6. 1991-ci il oktyabrın 18-dək orden və medallarla təltif edilmə.*[1]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 20 avqust 2013-cü il tarixli **222** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 6 sentyabr 2013-cü il, № 195**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 20 avqust 2013-cü il tarixli **222** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 6 sentyabr 2013-cü il, № 195**) ilə 1.5-ci bəndində nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və 1.6-cı bənd əlavə edilmişdir.